# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№380/4** **09 oktyabr 2025-ci il**

## "Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemləri" mövzusunda keçirilmiş sorğuya dair hesabat barədə

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin “Auditorlar Palatası tərəfindən 2025-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə” 2025-ci il 21 yanvar tarixli 10-1/3-3-3/2025 nömrəli sərəncamı ilə təsdiq edilmiş qrafikin “Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemlərinə dair sorğuların keçirilməsi” bəndinə müvafiq olaraq 2025-ci ilin iyul-avqust aylarında keçirilmiş sorğunun materiallarını və onun nəticələrinə dair Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemləri” mövzusunda keçirilmiş sorğuya dair hesabat bəyənilsin (əlavə olunur).
2. “Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemləri” mövzusunda keçirilmiş sorğunun nəticələrinə dair Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, iki həftə müddətində təsərrüfat subyektlərində audit komitələrinin yaradılması və fəaliyyətləri ilə bağlı yaranmış vəziyyət barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə məktub layihəsinin hazırlanmasını və Palatanın rəhbərliyinə təqdim edilməsini təmin etsin.
4. Palata aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, “Tədbirlər Planı”nda nəzərdə tutulmuş müvafiq işlərin Palatanın 2026-cı il üzrə iş planına daxil edilməsini təmin etsin.
5. Palatanın daxili auditoru Ş.Əsgərovaya tapşırılsın ki, “Tədbirlər Planı”nda 2025-ci il üzrə nəzərdə tutulmuş müvafiq işlərin icrasına nəzarət olunmasını təmin etsin.
6. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki:

6.1. “Tədbirlər Planı”nda nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsin;

6.2. üç həftə müddətində KİV-də dərc olunması məqsədilə təsərrüfat subyektlərində audit komitələrinin rolu, vəzifələri və səlahiyyətlərinə dair məqalənin hazırlanmasını təmin etsin.

7. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, on gün müddətində bu qərarın və “Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemləri” mövzusunda keçirilmiş sorğuya dair hesabatın mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**